**Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin əsas prinsip və formaları, prioritet sahələri, dövlət dəstəyinin təmin olunmasının əsas vasitələri və digər konseptual məsələləri ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli 2288 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir.

Ötən dövr ərzində qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyətinin inkişafında fəal rol oynamış, ölkənin milli maraqlarının qorunmasında, müxtəlif sahələr üzrə dövlət proqramlarının icrasında, həmçinin cəmiyyət həyatının bir sıra sahələrində yaranan problemlərin həllində yaxından iştirak etmişlər.

Qeyri-hökumət təşkilatlarına göstərilən dövlət dəstəyi ilə bağlı əldə olunan nəticələrin təhlili və ümumiləşdirilməsi bu sahədə fəaliyyətin daha təkmil əsaslar üzərində qurulmasını, habelə qeyri-hökumət təşkilatlarının potensialından daha səmərəli istifadə edilməklə dövlətin və cəmiyyətin həyatında onların aktiv fəaliyyəti üçün tənzimləyici mexanizmlərin təkmilləşdirilməsini zəruri edir.

Bununla belə, qeyri-hökumət təşkilatları ilə biznes qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi qeyri-hökumət təşkilatlarının fəaliyyətinin genişlənməsinə və onların cəmiyyət üçün ictimai aktual hesab olunan məsələlərin həllində iştirakına əlavə imkanlar yaradır, həmçinin biznes qurumlarının cəmiyyət qarşısında sosial məsuliyyətinin artırılmasına və cəmiyyətdə həmrəylik ruhunun daha da güclənməsinə öz töhfəsini verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət və cəmiyyət həyatında qeyri-hökumət təşkilatlarının rolunun artırılması, fəaliyyətinin yeni dövrün çağırışlarına uyğun təşkili, bu sahədə həyata keçirilən dövlət dəstəyinin təşkilati-hüquqi əsaslarının və mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının əsasında "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs yaradılsın.

2. "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

4. Agentliyin nizamnamə fondu onun balansına verilən dövlət əmlakı hesabına formalaşır.

5. Müəyyən edilsin ki:

5.1. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi *7 (yeddi)* üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;[1]

5.2. Müşahidə Şurasının *4 (dörd)* üzvü *vətəndaş cəmiyyəti institutlarının*, digər 3 (üç) üzvü isə dövlət orqanlarının nümayəndələrindən təyin edilir;[2]

5.3. Agentliyin fəaliyyətinə cari rəhbərliyi Agentliyin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi *3 (üç) üzvdən – sədr və onun iki müavinindən ibarət İdarə Heyəti* həyata keçirir;[3]

5.4. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

6. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

6.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması, Müşahidə Şurasının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.1.3. Agentliyin ləğvi və yenidən təşkili;

6.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

6.1.5. Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

6.1.6. Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyati şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

6.2. Agentliyə:

6.2.1. Agentliyin strukturunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

6.2.2. bu Fərmanın 6.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Agentliyin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılması qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.3. qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasını, qrant məbləğinin müəyyən edilməsi meyarlarını və hər bir

mövzu üzrə qrant məbləğinin yuxarı həddini iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.4. Agentliyin balansına verilən dövlət əmlakının qiymətləndirilərək Agentliyin nizamnamə fondunda nəzərə alınması üçün müvafiq təkliflərini Agentlik dövlət qeydiyyatına alındığı gündən iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.7. dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini həll etsin;

7.8. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

7.9. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Agentlik:

8.1. Agentliyin strukturu, işçilərinin say həddi və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

*8.1-1. bu Fərmanın 7.2-ci və 7.3-cü bəndləri icra olunanadək, qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsinin müvəqqəti qaydasını, qrant məbləğinin müəyyən edilməsinin müvəqqəti meyarlarını və hər mövzu üzrə qrant məbləğinin yuxarı həddini, habelə Agentliyin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılmasının müvəqqəti qaydasını təsdiq etsin;*[4]

8.2. "Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli 26 nömrəli Fərmanı nəzərə alınmaqla, qeyri-hökumət təşkilatlarına və onların iştirakı ilə keçirilən layihələrə dair informasiya ehtiyatının formalaşdırılmasını "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təmin etsin;

8.3. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının işçilərinin Agentlikdə müvafiq vəzifələrə təyin olunmaları ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

8.4. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət

reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

8.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Nizamnamənin 5.1-ci bəndində və bu Fərmanın 5.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

9.2. Agentliyin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

10. "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1224; 2009, № 4, maddə 222, № 12, maddə 988; 2012, № 2, maddə 83, № 5, maddə 429; 2016, № 3, maddə 466; 2018, № 11, maddə 2269; 2019, № 7, maddə 1246, № 8, maddə 1036) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 aprel 2021-ci il
№ 1317

Azərbaycan Respublikası Prezidentinin
2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin**

## N İ Z A M N A M Ə S İ

### 1. Ümumi müddəalar

*1.1. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra – Agentlik) qeyri-hökumət təşkilatlarının inkişafı, onların dövlət və cəmiyyət üçün əhəmiyyətli təşəbbüslərinin, proqram və layihələrinin dəstəklənməsi, bu istiqamətdə müvafiq əlaqələndirmə aparılması, dövlət–özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi sahəsində fəaliyyət göstərən, Azərbaycan Respublikasının dövlət büdcəsindən qeyri-hökumət təşkilatlarının bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında müvafiq dövlət qurumları ilə birlikdə həyata keçirən publik hüquqi şəxsdir;*[5]

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. *Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.*[6]

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6. Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. O, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

*1.6-1. Agentliyin rəsmi adı aşağıdakı kimidir:*[7]

*1.6-1.1. tam halda – "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs, qısaldılmış halda – QHT Agentliyi;*

*1.6-1.2. ingilis dilində tam halda – "Agency on State Support to Non-Governmental Organizations of the Republic of Azerbaijan" public legal entity, qısaldılmış halda – NGO Agency.*

1.7. Agentlik Bakı şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.3. dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərini inkişaf etdirmək və təşviq etmək;

*2.1.4. qeyri-hökumət təşkilatlarının dövlət və cəmiyyət üçün əhəmiyyətli təşəbbüslərini, proqram və layihələrini dəstəkləmək, bu istiqamətdə müvafiq əlaqələndirməni təmin etmək, habelə dövlət–özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərini təkmilləşdirmək və təşviq etmək;*[8]

2.1.5. qeyri-hökumət təşkilatlarının ictimai nəzarət sahəsində fəaliyyətini təşviq etmək;

2.1.6. qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrini inkişaf etdirmək;

2.1.7. dövlət büdcəsinin vəsaiti hesabına ayrılan qrantlardan qeyri-hökumət təşkilatları tərəfindən təyinatı üzrə istifadə olunmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

2.1.8. qeyri-hökumət təşkilatlarına məlumatlandırma, konsultativ, metodiki, maliyyə yardımı göstərmək;

2.1.9. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında üçtərəfli tərəfdaşlıq münasibətlərini təşviq etmək, bu məqsədlə təhlillər və monitorinqlər aparmaq, sorğular keçirmək və onlar arasında qarşılıqlı əməkdaşlığın stimullaşdırılması və inkişafı istiqamətində tədbirlər görmək;

3.1.3. vətəndaş cəmiyyətinin prioritet istiqamətlərini öyrənmək, ictimai təşəbbüskarlığın inkişafına dair təklifləri dəstəkləmək, eləcə də aidiyyəti dövlət orqanlarının (qurumlarının), qeyri-hökumət təşkilatlarının, ictimaiyyət nümayəndələrinin və digər maraqlı tərəflərin iştirakı ilə həmin təkliflərin ictimai müzakirəsini təşkil etmək;

3.1.4. qeyri-hökumət təşkilatlarına və onların iştirakı ilə keçirilən layihələrə dair bu Nizamnamənin 3.1.15-ci yarımbəndinə uyğun informasiya ehtiyatı formalaşdırmaq;

3.1.5. dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair layihələrin hazırlanmasına və həyata keçirilməsinə qeyri-hökumət təşkilatlarını cəlb etmək, bu sahədə onlar üçün bərabər şərait və imkan yaratmaq, həmin layihələrin həyata keçirilməsi üçün tələb olunan vəsaitə dair tələbatı müəyyən etmək;

3.1.6. Agentlik tərəfindən layihələrin dövlət büdcəsinin vəsaiti hesabına qrant maliyyələşdirilməsi zamanı şəffaflığın, obyektivliyin və hesabatlılığın təmin olunmasında iştirak etmək, eləcə də bu sahədə səmərəliliyin artırılmasına dair mexanizmlərin inkişaf etdirilməsi üçün təkliflər vermək;

3.1.7. bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətləri nəzərə alınmaqla, ~~təqvim ili üzrə~~ maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə*, habelə bələdiyyələrə* qrant verə bilən qurumların siyahısı"nda nəzərdə tutulmuş qurumlar tərəfindən Azərbaycan Respublikasının hüquqi şəxsləri olan qeyri-hökumət təşkilatlarına verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuları Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"nin 3.1.3-1-ci yarımbəndi nəzərə alınmaqla, qiymətləndirmək və bu qrantlara dair rəy vermək;[9]

3.1.8. bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, dövlət büdcəsindən ayrılmış, habelə qanunla qadağan olunmayan digər mənbələrdən daxil olan vəsait hesabına layihələrin müsabiqə əsasında maliyyələşdirilməsini həyata keçirmək, müsabiqədənkənar fondun həcmini və ondan istifadə qaydasını müəyyən etmək;

3.1.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq, Agentliyin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirmək, icra olunan layihələrin monitorinqini və qiymətləndirilməsini aparmaq;

3.1.10. bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, qeyri-hökumət təşkilatlarının Agentliyə təqdim etdiyi layihələrin ekspertizasını aparmaq, bu sahədə təcrübənin ümumiləşdirilməsi və ekspertiza prosedurlarının təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.11. qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafını dəstəkləmək, bu sahədə fəaliyyəti təşviq etmək, beynəlxalq tədbirlərdə qeyri-hökumət təşkilatlarının iştirakını təmin etmək üçün vəsait ayırmaq;

*3.1.11-1. qeyri-hökumət təşkilatlarının səriştəliliyinin və məsuliyyətinin artırılmasına, onların dayanıqlı inkişafına yönəlmiş tədbirlər görmək;*[10]

3.1.12. qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi üzrə müsabiqələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya müvafiq təşkil etmək, habelə bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına verilmiş qrantlardan qeyri-hökumət təşkilatlarının təyinatı üzrə istifadə etmələrinə nəzarət etmək;

*3.1.12-1. Azərbaycan Respublikasının dövlət büdcəsindən qeyri-hökumət təşkilatlarının bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında müvafiq dövlət qurumları ilə birlikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun təşkil etmək;*[11]

3.1.13. qeyri-hökumət təşkilatları tərəfindən layihələrin həyata keçirilməsi zamanı müqavilə öhdəliklərinin pozulması və digər sui-istifadə hallarını aşkar etdikdə, müvafiq tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət etmək;

3.1.14. layihələrlə bağlı qrant müqaviləsi üzrə öhdəliklərini pozan qeyri-hökumət təşkilatlarını 2 (iki) ilədək müddətə qrant müsabiqələrində iştirak hüququndan məhrum etmək;

3.1.15. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.16. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.19. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.20. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.21. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.22. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.1.23. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.24. müvafiq sahədə peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsini təmin etmək;

3.1.25. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının ictimai təşəbbüskarlıq meyillərinin artırılmasına dair təkliflər vermək;

3.2.4. dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair layihələrin həyata keçirilməsində özəl sektorun iştirakını təşviq etmək, bu sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə və maraqlı tərəflərlə müzakirələr və məsləhətləşmələr aparmaq;

3.2.5. dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı qeyri-hökumət təşkilatlarının, eləcə də müstəqil ekspertlərin və mütəxəssislərin potensialından səmərəli istifadə edilməsi ilə bağlı təkliflər vermək;

3.2.6. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair milli prioritetlər sahəsində yerli və xarici qeyri-hökumət təşkilatlarının təşəbbüslərini dəstəkləmək;

3.2.7. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.11. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.12. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.13. əməkdaşlarını *və qeyri-hökumət təşkilatlarının nümayəndələrini* dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, *habelə Agentlik əməkdaşlarının* həvəsləndirilməsi üçün tədbirlər görmək;[12]

3.2.14. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və *İdarə Heyətidir.*[13]

4.3. Agentliyin Müşahidə Şurası (bundan sonra – Şura) Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

*4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 7 (yeddi) üzvdən ibarətdir. Şuranın 4 (dörd) üzvü vətəndaş cəmiyyəti institutlarının, digər 3 (üç) üzvü isə dövlət orqanlarının nümayəndələrindən təyin edilir. Şuranın sədri Şuranın iclasında Şura üzvü olan vətəndaş cəmiyyəti institutlarının nümayəndələri sırasından 4 (dörd) il müddətinə seçilir.*

*4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.*[14]

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Agentliyin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Agentliyin fəaliyyətinə nəzarət etmək;

4.7.4. *Agentliyin İdarə Heyətinin sədrini və onun müavinlərini* vəzifəyə təyin və vəzifədən azad etmək;[15]

4.7.5. Agentliyin əməyin ödənişi fondunu, strukturunu, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq etmək, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.6. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.7. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.8. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.9. *İdarə Heyətinin* fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;[16]

4.7.10. bu Nizamnamənin 3.1.12-ci yarımbəndində nəzərdə tutulan qrant müsabiqələrinin nəticələrinə dair qərar qəbul etmək;

4.7.11. Şura üzvlərinin, *İdarə Heyətinin* müraciətlərinə baxmaq və qərar qəbul etmək;[17]

4.7.12. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.13. Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.14. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.15. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək, fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.16. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək.

4.8. Şuranın sədri *ildə 2 (iki)* dəfədən az olmayaraq Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya *İdarə Heyətinin sədri* çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, *iclasa sədrlik edənin* səsi həlledicidir.[18]

4.9. Şuranın üzvlərinə, habelə *İdarə Heyətinin sədrinə* və Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.[19]

4.10. Şuranın iclasında *İdarə Heyətinin sədri də* iştirak edə bilər.[20]

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək *İdarə Heyətinin sədrinə* göndərir.[21]

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və *İdarə Heyətinin* qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;[22]

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya *İdarə Heyəti sədrinin* müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;[23]

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə ~~Şura sədrinin müavini, Şura sədrinin müavini olmadıqda isə~~ Şura üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.[24]

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. *İdarə Heyəti* Agentliyin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. *İdarə Heyətinin sədri və onun müavinləri* Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. *İdarə Heyəti sədrinin* onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 2 *(iki)* müavini vardır.[25]

4.21. *İdarə Heyətinin sədri* müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun *müavinlərindən biri* icra edir.[26]

*4.22. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:*[27]

*4.22.1. Agentliyin fəaliyyətini təşkil etmək;*

*4.22.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;*

*4.22.3. Şuranın qərarlarını icra etmək;*

*4.22.4. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;*

*4.22.5. Agentliyin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;*

*4.22.6. bu Nizamnamənin 3.1.19-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;*

*4.22.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;*

*4.22.8. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;*

*4.22.9. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;*

*4.22.10. Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.*

*4.22-1. İdarə Heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:*[28]

*4.22-1.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;*

*4.22-1.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;*

*4.22-1.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;*

*4.22-1.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;*

*4.22-1.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;*

*4.22-1.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;*

*4.22-1.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;*

*4.22-1.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;*

*4.22-1.9. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;*

*4.22-1.10. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;*

*4.22-1.11. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;*

*4.22-1.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;*

*4.22-1.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;*

*4.22-1.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;*

*4.22-1.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;*

*4.22-1.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.*

*4.22-2. İdarə Heyətinin üzvləri:*

*4.22-2.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;*

*4.22-2.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;*

*4.22-2.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;*

*4.22-2.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;*

*4.22-2.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.*

4.23. *İdarə Heyətinin üzvləri* adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.[29]

## 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondunun məbləği *134 945 (yüz otuz dörd min doqquz yüz qırx beş)* manatdır.[30]

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin məhsulları tənzimlənən qiymətlərə aid deyildir.

## 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Agentliyin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

## 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 2 dekabr 2021-ci il tarixli **1483** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 dekabr 2021-cu il, № 262, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1348)**
2. 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə 5.1-ci bənddə "**11 (on bir)**" sözləri "**7 (yeddi)**" sözləri ilə əvəz edilmişdir.

[2] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə 5.2-ci bənddə "**8 (səkkiz)**" sözləri "**4 (dörd)**" sözləri ilə, "**qeyri-hökumət təşkilatlarının**" sözləri "**vətəndaş cəmiyyəti institutlarının**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə 5.3-cü bənddə "**İcraçı direktor**" sözləri "**3 (üç) üzvdən – sədr və onun iki müavinindən ibarət İdarə Heyəti**" sözləri ilə əvəz edilmişdir.

[4] 2 dekabr 2021-ci il tarixli **1483** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 dekabr 2021-cu il, № 262, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1348)** ilə yeni məzmunda 8.1-1-ci bənd əlavə edilmişdir.

[5] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 1.1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.1. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra – Agentlik) qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin (bundan sonra – layihələr) mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi, habelə qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.~~

[6] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına

Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 1.4-cü bəndinə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[7] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nə yeni məzmunda 1.6-1-ci bənd əlavə edilmişdir.

[8] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 2.1.4-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.1.4. dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri layihələrin mövzularını qiymətləndirmək və onlara dair rəy vermək;~~

[9] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 3.1.7-ci yarımbəndindən "**təqvim ili üzrə**" sözləri çıxarılmışdır və həmin yarımbəndə "**şəxslərinə**" sözündən sonra "**, habelə bələdiyyələrə**" sözləri əlavə edilmişdir.

[10] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nə yeni məzmunda 3.1.11-1-ci yarımbənd əlavə edilmişdir.

[11] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nə yeni məzmunda 3.1.12-1-ci yarımbənd əlavə edilmişdir.

[12] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 3.2.13-cü yarımbəndinə "**əməkdaşlarını**" sözündən sonra "**və qeyri-hökumət təşkilatlarının nümayəndələrini**" sözləri əlavə olunmuşdur və həmin yarımbənddə "**onların**" sözü "**habelə Agentlik əməkdaşlarının**" sözləri ilə əvəz edilmişdir.

[13] 29 dekabr 2025-ci il tarixli 560 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.2-ci bəndində "**İcraçı direktordur**" sözləri "**İdarə Heyətidir**" sözləri ilə əvəz edilmişdir.

[14] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.4-cü və 4.5-ci bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 11 (on bir) üzvdən ibarətdir. Şuranın 8 (səkkiz) üzvü qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, digər 3 (üç) üzvü isə dövlət orqanlarının nümayəndələrindən 4 (dörd) il müddətinə təyin edilir. Şuranın sədri və onun müavini Şuranın iclasında Şura üzvləri sırasından 2 (iki) il müddətinə seçilir.~~

~~4.5. Səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı Şuranın sədrinə və sədrin müavininə rübdə bir dəfə Agentliyin İcraçı direktorunun aylıq əməkhaqqının 2 (iki) misli, Şura üzvlərinə isə 1 (bir) misli həcmində təmsilçilik xərcləri ödənilir. Təmsilçilik xərcləri dövlət büdcəsindən Agentliyə ayrılmış vəsait hesabına ödənilir.~~

[15] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.7.4-cü yarımbəndində "**İcraçı direktoru və onun müavinini**" sözləri "**Agentliyin İdarə Heyətinin sədrini və onun müavinlərini**" sözləri ilə əvəz edilmişdir.

[16] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.7.9-cu yarımbəndində "**İcraçı direktorun**" sözləri "**İdarə Heyətinin**" sözləri ilə əvəz edilmişdir.

[17] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.7.11-ci yarımbəndində "**İcraçı direktorun**" sözləri "**İdarə Heyətinin**" sözləri ilə əvəz edilmişdir.

[18] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.8-ci bəndinin birinci cümləsində "**rübdə bir**" sözləri "**ildə 2 (iki)**" sözləri ilə, ikinci cümləsində "**İcraçı direktor**" sözləri "**İdarə Heyətinin sədri**" sözləri ilə, altıncı cümləsində "**Şura sədrinin (və ya onu əvəz edən müavinin)**" sözləri "**iclasa sədrlik edənin**" sözləri ilə əvəz edilmişdir.

[19] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.9-cu bəndində "**İcraçı direktora**" sözləri "**İdarə Heyətinin sədrinə**" sözləri ilə əvəz edilmişdir.

[20] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.10-cu bəndində "**İcraçı direktor da**" sözləri "**İdarə Heyətinin sədri də**" sözləri ilə əvəz edilmişdir.

[21] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.13-cü bəndinin üçüncü cümləsində "**İcraçı direktora**" sözləri "**İdarə Heyətinin sədrinə**" sözləri ilə əvəz edilmişdir.

[22] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.16.1-ci yarımbəndində "**İcraçı direktorun**" sözləri "**İdarə Heyətinin**" sözləri ilə əvəz edilmişdir.

[23] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.16.3-cü yarımbəndində "**İcraçı direktorun**" sözləri "**İdarə Heyəti sədrinin**" sözləri ilə əvəz edilmişdir.

[24] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.17-ci bəndindən "**Şura sədrinin müavini, Şura sədrinin müavini olmadıqda isə**" sözləri çıxarılmışdır.

[25] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.20-ci bəndinin birinci cümləsində "**İcraçı direktor**" sözləri "**İdarə Heyəti**" sözləri ilə, ikinci cümləsində "**İcraçı direktor**" sözləri "**İdarə Heyətinin sədri və onun müavinləri**" sözləri ilə, üçüncü cümləsində "**İcraçı direktorun**" sözləri "**İdarə Heyəti sədrinin**" sözləri ilə əvəz olunmuşdur və həmin cümləyə "**azad edilən**" sözlərindən sonra "**2 (iki)**" sözləri əlavə edilmişdir.

[26] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.21-ci bəndində "**İcraçı direktor**" sözləri "**İdarə Heyətinin sədri**" sözləri ilə, "**müavini**" sözü "**müavinlərindən biri**" sözləri ilə əvəz edilmişdir.

[27] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci

**il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.22-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.22. İcraçı direktorun vəzifələri aşağıdakılardır:~~

~~4.22.1. Agentliyin fəaliyyətini təşkil etmək və onu təmsil etmək;~~

~~4.22.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;~~

~~4.22.3. Şuranın qərarlarını icra etmək;~~

~~4.22.4. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;~~

~~4.22.5. Agentliyin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;~~

~~4.22.6. bu Nizamnamənin 3.1.19-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;~~

~~4.22.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;~~

~~4.22.8. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;~~

~~4.22.9. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;~~

~~4.22.10. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;~~

~~4.22.11. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;~~

~~4.22.12. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;~~

~~4.22.13. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;~~

~~4.22.14. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Şura ilə razılaşdırmaqla qərarlar qəbul etmək;~~

~~4.22.15. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;~~

~~4.22.16. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;~~

~~4.22.17. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;~~

~~4.22.18. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;~~

~~4.22.19. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;~~

~~4.22.20. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;~~

~~4.22.21. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.~~

[28] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nə yeni məzmunda 4.22-1-ci və 4.22-2-ci bəndlər əlavə edilmişdir.

[29] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

**2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 4.23-cü bəndində "**İcraçı direktor və onun müavini**" sözləri "**İdarə Heyətinin üzvləri**" sözləri ilə əvəz edilmişdir.

[30] 29 dekabr 2025-ci il tarixli **560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 dekabr 2025-ci il, "Xalq" qəzeti, 30 dekabr 2025-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 12, I kitab, maddə 1151)** ilə "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "**100 000 (yüz min)**" sözləri "**134 945 (yüz otuz dörd min doqquz yüz qırx beş)**" sözləri ilə əvəz edilmişdir.